

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 51 (23.693)

*17 mart 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Xəbər verildiyi kimi, martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar. Prezident İlham Əliyev səfər çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşüblər. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırıb və çıxış edib. Dövlətimizin başçısı çıxışında bildirib ki, müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoyub. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında, Hünərli kəndindəki Alban məbədində olublar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ və Azıx kəndlərinə gediblər. Dövlətimizin başçısı bildirib ki, Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.



## "Qars müqaviləsi və Naxçıvan" mövzusunda beynəlxalq elmi konfrans keçirilib



*AMEA Naxçıvan Bölməsində "Qars müqaviləsi və Naxçıvan" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.*

Konfransı giriş sözü ilə açan Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Beynəlxalq Qars müqaviləsi və Naxçıvanın muxtariyyət məsələsi" mövzusunda məruzə edib. Beynəlxalq əhəmiyyətə malik Qars müqaviləsinin Naxçıvanın muxtariyyətindəki əhəmiyyətindən danışan akademik Moskva və Qars müqavilələrində Naxçıvanın ərazi taleyi ilə bağlı əksini tapan məsələlərə toxunub, hər iki tarixi sənədin Naxçıvanın Azərbaycanın ərazisi kimi tanınmasında, Naxçıvana muxtariyyət statusunun verilməsindəki rolunu vurğulayıb.

Akademik ümummilli lider Heydər Əliyevin bu müqaviləyə verdiyi önəmdən bəhs edib. Qeyd olunub ki, dahi öndərin Naxçıvan muxtariyyətinin qarantı kimi Qars müqaviləsini daim gündəmdə saxlaması bu tarixi sənədin vacibliyindən xəbər verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamı ilə "Qars müqaviləsinin 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq olunduğunu xatırladan alim bildirib ki, müqavilənin 100 illiyinin yüksək səviyyədə qeyd olunması Naxçıvana, onun muxtariyyətinə verilən dəyərin bariz nümunəsidir. Bu gün də mənfur düşmənlərimizin Qars müqaviləsinin ləğvi ilə bağlı xam xəyallarından əl çəkmədiyini vurğulayan məruzəçi bu məkrli arzuların reallaşmayacağına əminliyini ifadə edib.

İsmayıl Hacıyev ermənilərin işğalçılıq siyasətində Naxçıvanın önəmindən, yaranmış vəziyyətlə əlaqədar 1918-1920-ci illərdə ölkənin düçar olduğu ağır ictimai-siyasi durumdan, Naxçıvanın muxtariyyətə gedən çətin və şərəfli mübarizəsində Türkiyənin mühüm rolu və dəstəyindən, qardaş ölkədə həmin dövrdə mövcud olan vəziyyətdən danışıb.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli "Qars müqaviləsində iştirak edən Azərbaycan təmsilçiləri" adlı məruzəsində bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixli Sərəncamı və təsdiq olunan Tədbirlər Planı Azərbaycan və Türkiyə münasibətlərinin möhkəmlənməsinə, ortaq maraqlara xidmət edən mühüm dövlət sənədləridir. Hər iki sənəd erməni canfəşanlığına ən tutarlı və obyektiv cavabdır. Məruzəçi bölgədə Araz-Türk Respublikasının yaradılması, Naxçıvanda keçirilən xalq səsverməsinin əhəmiyyəti və nəticələri, görkəmli ictimai xadim Behbud ağa Şahtaxtinskinin mühüm xidmətlərindən, diplomatik səriştəsindən bəhs edib. Alim çıxışında Kazım Qarabəkir Paşanın, Nəriman Nərimanovun böyük xidmətlərini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Qars müqaviləsinin imzalanması ərəfəsində Naxçıvanda ictimai-siyasi vəziyyət" mövzusunda məruzə edib. Məruzəçi XX əsrin əvvəllərində ölkəmizdə mövcud olan gərgin geosiyasi vəziyyət, Naxçıvana kimi mühüm strateji ərazidə möhkəmlənməyə çalışan Qərbin canfəşanlığını təhlil etməklə bu məsələdə istifadə olunan erməni faktoru və onların xam xülyası – "böyük Ermənistan" məsələsindən bəhs edib.

Konfransda məruzə edən Qars Qafqaz Universitetinin tarix fakültəsinin dekanı, tarix elmləri doktoru Səlçuk Ural Türkiyənin Qafqaz siyasəti və Qars müqaviləsi məsələsi ilə bağlı bildirib ki, bu müqavilə təkcə ərazi məsələsi deyil, həm də həyati məsələnin həllini tapdığı sənəd olmaqla, bölgədə sülhün bərqərar olmasında mühüm əhəmiyyətə malikdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, dosent Elman Cəfərli "Qars müqaviləsi, Türkiyə və Cənubi Qafqaz respublikalarının ərazi sərhəd məsələləri" mövzusunda məruzə edərək Batum konfransının keçirilməsi, məqsədi, orada aparılan müzakirələr haqqında məlumatı diqqətə çatdırıb.

"Qars müqaviləsi Rusiya mənbələrində" adlı məruzə edən Qars Qafqaz Universitetinin şöbə müdiri, professor Hacəli Nəcəfoğlu Moskva və Qars müqavilələrinin ləğvinə çalışan bəzi "dövlət və elm adamları"nın müxtəlif təşkilatlara, siyasi xadimlərə ünvanladığı məktublar, müraciətlər və onların məzmununu slaydlar vasitəsilə dinləyicilərə təqdim edib.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev isə məruzəsində qeyd edib ki, ulu öndər Heydər Əliyev Naxçıvanın muxtariyyət məsələsinə böyük önəm vermiş, daim diqqət mərkəzində saxlamışdır. Bu siyasi xətt Prezident cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir.

Sonda Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Qars müqaviləsi və Naxçıvanın taleyi" filmi nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Əhalinin təbii qazla təminatı diqqətdə saxlanılır

Muxtar respublikanın yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində təsdiq olunmuş iş planına əsasən ardıcıl tədbirlər görülür.

Muxtar respublikanın şəhər və rayon ərazilərindən daxil olan müraciətlərə əsasən fevral ayında "Naxçıvanqaz Servis" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən daxil olan müraciətlərə əsasən 100 mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılmışdır ki, bunun 95-i əhali, 5-i isə qeyri-əhali abonentlərdir.

Ötən ay Qaz İstismar Xidmətinə tabe şəhər, rayon qaz istismarı idarələrinin qəza-dispetçer sahələrinin 104 nömrəli 24 saat aktiv olan qaynar xəttinə təbii qaz istehlakçılarından qaz sızması, qaztənzimləyicilərin nizamlanması, elektron sayğacların kilidə düşməsi və qəza-bərpa işlərinə görə 847 çağırış daxil olmuşdur.

Hesabat ayında muxtar respublikanın qaz şəbəkəsində 639 qaz sızması aşkarlanmış, texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə müvafiq olaraq sızmalar aradan qaldırılmışdır. Ay ərzində yeni qaz-boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz-boru xətlərinin yerinin dəyişdirilməsi, yaşayış binalarında təmir-tikinti, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi işlərinin görülməsi ilə əlaqədar müxtəlif diametrli polietilen və dəmir borulardan istifadə olunmuşdur.

Muxtar respublikada yerli qaz istismarı idarələrinin işçiləri tərəfindən qaz cihazlarından təhlükəsiz istifadə qaydaları haqqında abonentlər arasında maarifləndirmə və izahat işi aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən fevral ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 28 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergiödəyicisində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunmaması, 1 vergiödəyicisində "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığortahaqqının ödənilməsi haqqında qəbz" almaması, 3 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi, 23 vergiödəyicisinin isə "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 2 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Onlayn açıq dərs

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin tələbələrinin iştirakı ilə "Moskva müqaviləsinin tarixi əhəmiyyəti" mövzusunda onlayn açıq dərs keçilmişdir.***

Açıq dərsi giriş sözü ilə açan mərkəzin elmi katibi Nihad Tarverdiyev qeyd etmişdir ki, 1920-ci ilin sentyabrın 24-də türk ordusu erməni hücumlarının qarşısını almaq üçün onlarla müharibə aparmalı oldu və elə həmin ilin noyabr ayının 18-də erməniləri məğlub etdi. 1920-ci ilin dekabrın 2-də Ermənistanla Türkiyə arasında 18 maddədən ibarət olan Gümrü müqaviləsi imzalandı. Bu müqavilənin 2-ci və 12-ci maddələri Naxçıvanla bağlı idi. Bu müqavilə ermənilərin planlarını həyata keçirməyə imkan vermədi.

Diqqətə çatdırılmışdır ki, mahir diplomat Behbud ağa Şahtaxtinskinin iştirak etdiyi və bir ay davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış RSFSR-Türkiyə "Dostluq və qardaşlıq müqaviləsi"ndə öz əksini tapdı. Moskva müqaviləsini imzalamaqla Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı. Əslində bu Azərbaycanın suverenliyinin təmin edilməsi idi.

Sonda tələbələrin sualları cavablandırılıb.

## Yeni meyvə bağı salınıb

Hər il keçirilən yaz və payız iməcilikləri zamanı yeni meyvə bağları salınır, meşə zolaqlarının ərazisi xeyli genişləndirilir, ümumiyyətlə, yüz minlərlə yeni meyvə, meşə və bəzək ağacları əkilir. Aparılan tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikada yaşıllıq zolaqlarının sahəsi ümumi ərazinin 20 faizdən çoxunu tutur.

Şərur rayonunda da bu istiqamətdə həyata keçirilən tədbirlərin həcmi getdikcə artır. Artıq Sədərək – Naxçıvan magistralının, Yuxarı Daşarx-Gümüşlü avtomobil yolunun rayon ərazisindən keçən hissəsinin hər iki tərəfi yaşıllıqlarla örtülüb, kəndlərdə və Şərur şəhərində salınmış yeni meyvə bağları göz oxşayır.

Mart ayının əvvəlindən başlanan növbəti yaz yaşıllaşdırma aylığının ilk günü Naxçıvan – Sədərək avtomagistralının Xanlıqlar kəndi ərazisindəki 0,7 hektar sahə əkin üçün yararlı hala gətirildikdən sonra yeni meyvə bağı salınıb, əraziyə 200-dən artıq calaq edilmiş ərik tingi əkilib.

Mövsüm ərzində belə tədbirlər rayonun müxtəlif ünvanlarında davam etdiriləcək, bölgənin yaşıllıq əraziləri genişləndiriləcək.

**Xəbərlər şöbəsi**



*Naxçıvandan Sədərəyə uzanan magistral yolboyu dəfələrlə seyr etdiyim müasir evlər, abad küçələr, axarlı-baxarlı həyətlər, bağ-bağçalar, əkin sahələri insanların yaşayışından, xoş güzəranından soraq verir. Yazın gəlişi onsuz da gözəl olan diyarımızın bu gözəlliyinə xüsusi rəng qatıb. Yolların ətrafındakı qoca ağaclardan tutmuş körpə fidana kimi oyanmağa, bahara "xoş gəldin" deməyə can atır. Həmişə işgüzarlığı ilə fərqlənən Şərur elinin kənd adamları əkin yerlərində torpağa alın tərini qatır, ona can verir. Rayonun Maxta kəndindən keçib Dəmirçiyə üz tuturuq.*

*Müasirləşən kəndlərimiz*

## Bir kəndin timsalında qədimlik və müasirlik

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 23 fevral tarixdə imzaladığı "Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən Dəmirçi kənd inzibati ərazi dairəsi Şərur rayonunun tabeliyindən çıxarılaraq Sədərək rayonunun tabeliyinə verilib, Şərur rayonunun inzibati ərazisindən dövlət mülkiyyətində olan 4444 hektar torpaq sahəsi həmin Qanuna əlavə edilmiş xəritələrə uyğun olaraq Sədərək rayonunun inzibati ərazisinə birləşdirilib. Bu dəyişiklik Sədərək rayonunun iqtisadi və istehsal gücünün artmasına, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə, vətəndaşlara xidmətin daha da yaxşılaşdırılmasına imkan yaradacaq.

Dəmirçi kəndinin girəcəyində yeni tikililər ilə qarşılaşırıq. Kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası bu yaşayış məntəqəsinə böyük dövlət qayğısından soraq verir. Həmin ünvanda salınmış yaşıllıq və gülzarlıq ilk baharın sehri ilə oyanmaqdadır.

"Naxçıvan Ensiklopediyası"nda, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərləri"ndə, AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun "Naxçıvan oykonimləri" kitabında və başqa tarixi mənbələrdə bu yaşayış məntəqəsinin qədim yurd yeri olması barədə zəngin materiallara rast gəlirik. Belə ki, Naxçıvan-Sədərək avtomobil yolunun 70-ci kilometrliyindəki hündürlüyü 1244 metr olan Vəlidağdan şərqdəki təpənin üstündə, qədim karvan yolunun yaxınlığında arxeoloji abidə var. 1998-ci ildə aparılan arxeoloji tədqiqatlar nəticəsində burada üç qatdan ibarət müxtəlifölçülü sal daşlar aşkar edilib. Sonuncu qatdakı daşların üzərində qabartma üsulu ilə işlənmiş müxtəlif işarələrə rast gəlinib. Bu işarələrə Gəmiqaya rəsmlərində də rast gəlmək olar. Dəmirçi abidəsindən müxtəlif formalı keramika nümunələri də tapılıb. Kəndin qədim tarixini sübut edən daha bir arxeoloji abidə Tunc və İlk Dəmir





dövrlərinə aid nekropoldur. Buradakı qəbirlərdən tapılan boz rəngli gil qablar, odadavamlı boyaqlar da kəndin qədimliyindən soraq verir.

Kənd sakini, təqaüddə olan tarix müəllimi Rəşid Əsədov deyir ki, "Dəmirçi" sözü qədim toponimdir. Bəziləri bu toponimin mənşəyini türkdilli Dəmirçilər tayfasının, bəziləri Çingiz xanın, bəziləri Şahsevən tayfalarının adı ilə bağlayırlar. Əsəd müəllim onu da deyir ki, bu sözün ilkin yaranışı dəmirçilik sənəti ilə bağlı olub. Sonralar isə bu peşə həmin tayfanın əsl sənətinə çevrilib.

Müsahibimin sözlərinə görə, mənfur ermənilər ötən əsrin 90-cı illərinin əvvəlində Sədərək kəndini və buranı işğal etmək istəyiblər. O dövrdə ulu öndər Heydər Əliyev Naxçıvana gəlməsəydi, torpaqlarımızı qoruyub saxlamaq mümkün olmayacaqdı. Xalqın dahi rəhbərə inamı və bu inama görə düşmənlə qorxmadan, çəkinmədən apardığı mübarizə düşmənin gücündən üstün oldu. Həmin döyüşlərdə silahımız, isti geyimimiz olmasa da, qəlbimizi isidən Vətən sevgimiz var idi. Səngərdə "haralısan?" – sualı yox idi, təkcə Vətən var idi. Hamımız yaxşı dərk edirdik ki, qeyrət qalamız Sədərəyi itirsək, bütün Naxçıvanı təhlükəyə atarıq. Hamı əlbir olub bir hədəfə – düşmənə qarşı döyüşürdü. Məhz bu birliyin və inamın nəticəsində ermənilərin cavabı layiqincə verildi. Bir neçə ay əvvəl Böyük Qələbə ilə başa çatan Vətən müharibəsində də Dəmirçidən olan gənclər öz igidlikləri ilə fərqləndilər. Kəndimizin iki igid oğlu – Məmmədhəsən Sadiqli və Rüfət Gözəlov azadlıq mücadiləsində şəhidlik zirvəsinə yüksəlməklə adları əbədi olaraq tarixə, qəlbimizə yazıldı. Döyüşdə qazi olub geri qayıdan igidlərimizdən bir neçəsi indi də xidmətini davam etdirir.

Ağsaqqal kənd sakini onu da qeyd etdi ki, dövlətimiz bizim üçün bir vaxtlar xəyalımıza belə, gəlməyən şərait yaradıb. İndi yaxşı yaşamaq üçün hər cür imkanımız var. Əvvəllər belə deyildi. Ötən əsrin 90-cı illərinin əvvəllərində elə vaxt olub ki, süfrəyə qoymağa çörək tapa bilməmişik. Ancaq torpağa bağlı olan kənd camaatı burada möhkəmləndi, əkib-becərdi. Bu da nəticəsini verdi. Kəndimizdə xeyli quruculuq işləri görülüb. Kənd mərkəzi, yaraşıqlı məktəb binası tikilib.



Məktəb binasının istifadəyə verilməsi uşaqları, valideynləri çox sevindirib. İstifadəyə verilən xidmət sahələri sakinlərin sosial-mədəni həyat şəraitinin yaxşılaşdırılmasına müsbət təsir göstərməklə yanaşı, həm də vaxt itkisinə yol vermədən və əlavə vəsait xərcləmədən müəyyən məsələlərin həllində mühüm rol oynayır. İndi hər bir dəmirçili rayon mərkəzinə üz tutmadan öz işlərini qısa zamanda burada yoluna qoya bilir. Dövlət qurumları hər addımda sakinlərə köməklik göstərir, onların qayğıları ilə maraqlanırlar. Dəmirçidə rabitə və internet əlaqəsi də müasirliyin ifadəsi, bu yaşayış məntəqəsinə qayğının bariz təcəssümüdür. Bütün bunların sayəsində də sakinlər torpağa, el-obaya bağlanıblar. Bir neçə ildir ki, muxtar respublikanın şəhər və rayonları ilə yanaşı, kəndlərində də idmanın kütləviliyinin təmin olunmasına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, artıq kəndlərdə yeni idman obyektləri tikilir və ya yenidən qurulur. Bunlardan biri də kənd stadionudur. Uzunluğu 105, eni 60 metr olan təbii ot örtüklü stadionun ərazisində 118 nəfərlik oturacaqlar quraşdırılıb. Həmçinin stadionun ərazisində 50 tamaşaçı tutumlu voleybol meydançası inşa edilib və idman qurğuları quraşdırılıb. Kəndin uşaq və gəncləri asudə vaxtlarını bu ünvanda idmanla məşğul olmağa sərf edirlər.

Dəmirçidə kənd təsərrüfatının bütün sahələri inkişaf etdirilir. Əkinçilik və heyvandarlıq isə ən gəlirli təsərrüfat sahələrinə çevrilib. Bu böyük yaşayış məntəqəsində istehsal edilən heyvandarlıq məhsulları rayonda və muxtar respublikada təşkil olunan yarmarkalarda özünə çoxlu alıcı qüvvəsi toplayıb. Kənd sakini Malik Rzayev heyvandarlıqla məşğul olur. O deyir ki, bərəkətli torpaqlarımız və yaradılan şərait kənd adamlarının işini xeyli asanlaşdırıb. Sahibkarlıq fəaliyyətini genişləndirmək üçün mövcud imkanlardan lazımınca istifadə edilir. Kənddə ailə təsərrüfatı yaradanların da sayı günbəgün artmaqdadır. Qış bitib, yaz qədəm qoyur yurdumuza. Kənd adamı günün çoxunu əkin sahələrində, bağbağatda keçirir. Torpağa alın tərini qatmasan, zəhmət çəkməsən nəticəsi olmaz.

*Kənddən ayrılırıq. Yolboyu kənddə gördüyüm könülaçan mənzərələri, dinlədiyim qürurverici söhbətləri xatırladıqca belə qənaətə gəlirəm: Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan, bu qayğıdan yetərincə bəhrələnən, bu günlərədək Şərur rayonunun tərkibində yaşayış səviyyəsi yüksələn Dəmirçi kəndinin dövlət başçımızın müvafiq sərəncamı ilə Sədərək rayonunun tabeliyinə verilməsi, heç şübhəsiz ki, idarəetmə strukturunun daha da təkmilləşdirilməsi, infrastrukturun daha da müasirləşdirilməsi, rayonlararası inzibati ərazi bölgüsündə dəqiqləşdirmə baxımından öz töhfəsini verəcək. Bu kənddə yaşamaq, qurmaq-yaratmaq əzmli kənd adamlarının sabahı bundan da gözəl olacaq.*

**Ramiyyə ƏKBƏROVA**

*Ailə təsərrüfatlarımız*

## İqtisadiyyatımızın inkişafına töhfə verənlər

Muxtar respublikamızda bütün sahələrə olduğu kimi, ailə təsərrüfatlarının yaradılmasına, onların davamlı fəaliyyətinə də dövlətimiz tərəfindən hərtərəfli qayğı göstərilir. Bu gün daxili bazarlarımızın yerli ərzaq məhsulları ilə təmin edilməsində xüsusi payı olan belə təsərrüfatların inkişafı istiqamətində həyata keçirilən tədbirlər ailə təsərrüfatlarının sayının artması ilə yanaşı, ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına da geniş imkanlar açıb. 2019-cu ilin Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan olunması isə bu sahəyə olan marağı daha da artırıb. Elə biz də ulu diyarımızda tanınan bir neçə ailə təsərrüfatı başçısı ilə həmsöhbət olub, onlarla oxucularımızı yaxından tanış etmək istədik. İlk üz tutduğumuz ünvan Culfa rayonu oldu. Öyrəndik ki, burada Kamal Zeynalov fərqli bir təsərrüfat sahəsi yaradıb. Belə ki, o, göbələk yetişdirməklə məşğuldur.

Müsahibim deyir ki, uzun zaman qardaş Türkiyə Respublikasında yaşayıb. Elə bu işə marağı da oradan yaranıb. Muxtar respublikada əhalinin sosial rifah halının yaxşılaşdırılması, özünüməşğulluğun təmin olunması və sahibkarlığın inkişafı ilə bağlı dövlət siyasətinin həyata keçirilməsi nəticəsində qazanılan uğurlar onu yenidən Vətənə qayıtmağa sövq edib. Doğma yurduna yenidən döndükdən sonra ailə təsərrüfatçılarına göstərilən diqqət və qayğını görərək özü də təsərrüfat sahəsi yaradıb. Dövlətdən kredit götürüb, 150 kvadratmetr sahədə göbələk yetişdirilməsi ilə məşğul olan Kamal müəllim deyir:



– Göbələklər olduqca müxtəlifdir. Onlar bir-birindən quruluşuna, ölçülərinə, bitdiyi yerə, fizioloji funksiyalarına görə fərqlənir. Bu canlılar təbiətin hər cür şəraitində yaşamağa uyğunlaşmışlar. Onlara suda, torpaqda, ölü üzvi toxumalarda da rast gəlmək mümkündür. Mən də gördüyünüz bu sahədə göbələk yetişdirməklə məşğul oluram. 30-35 günə yetişən göbələyə xüsusi diqqətlə yanaşmaq lazımdır. Belə ki, o, kölgəni sevir, vaxtında sulanmalı, vaxtında da yığım aparılmalıdır. Onu da deyim ki, təsərrüfatda ailə üzvlərimlə yanaşı, əlavə işçi də çalışır. Onların köməkliyi ilə işimizin öhdəsindən gəlirik. İki ayda bir ton məhsul əldə edib muxtar respublikamızın bazarlarında, iri ticarət mərkəzlərində istehlakçılara təqdim edirik. Lakin günü-gündən tələbat artdığından gələcəkdə təsərrüfatımızı genişləndirməyi də düşünürük.

Kamal Zeynalovun sözlərinə görə, göbələk tərkibi B qrupu vitaminləri və mineral maddələrlə zəngin olmaqla faydalı qidalardan biri sayılır. Lakin həkimlər bildirirlər ki, göbələkdən ehtiyatla istifadə etmək lazımdır. Təbiətdə ən çox meşələrdə, çəmənliklərdə bitən "meşə əti" adlandırılan bu qida maddəsini uşaqların qidasına əlavə etmək üçün plantasiyalarda yetişdirilən göbələyə üstünlük vermək lazımdır. Çünki yığılma göbələk təbiətdə olan bütün zəhərli maddələri özünə toplayır. Buna görə də onunla daha ehtiyatlı olmaq lazımdır.

Növbəti müsahibim Şahbuz rayonunun Gömür kənd sakini Nazim Tarayevdir. Nazim dayı heyvandarlıq və arıçılıq, şərab istehsalı ilə məşğul olur. Deyir ki, 19 baş iribuynuzlu və 70 baş xırdabuynuzlu heyvan saxlayır. Ötən il 470 litr süd, 180 kiloqram qatıq, 193 kiloqram pendir, 98 kiloqram xama əldə edib.

Təsərrüfat başçısının sözlərinə görə, arıçılıq təsərrüfatında 22 arı ailəsi var. Kəndin səfalı təbiəti arıçılıqla məşğul olmaq üçün geniş imkanlar açır. Təkcə ötən ildə 57 kiloqram süzmə, 23 kiloqram şan bala sahib olub. Şərabçılıqla son illərdə məşğul olan Nazim Tarayev deyir ki, şərabı təkcə üzümdən deyil, ayrı-ayrı meyvələrdən də hazırlamaq olur. Mən təsərrüfatımda, əsasən, alma, armud, üzüm, alça şərabları hazırlayıram. 90 litr müxtəlif şərab növləri qablaşdırmışam ki, bunlardan 27 litri alça, 21 litri ərik, 19 litri armud və 23 litri tutdur. Bu şərablar üçün xammalı da elə öz həyətyanı sahəmdə əkib-becərdiyim meyvə ağaclarından alıram. Hazırladığım məhsulu qablaşdırıb kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına, həftəsonu yarmarkalarına çıxarmaqla yanaşı, iri ticarət mərkəzlərinə də göndəririk. Öyrənmişəm ki, şərabın bəzi növlərindən keçmişdə



yorğunluğa qarşı, o cümlədən bəzi xəstəliklərin müalicəsində istifadə olunub. Şərabın insan orqanizminə müsbət təsiri də vardır. Ağ şərab isə soyuqdəymə və zökəmi müalicə edə bilir. Qızılgül ləçəklərindən hazırlanan şərabdan isə başağrısı, mədə ağrısı və ürək xəstəliklərinin müalicəsində istifadə olunur.

Muxtar respublikamızda zəhmətdən qorxmayan belə insanlar dövlətimizin dəstəyini də hər zaman öz üzərlərində hiss edərək çəkdikləri zəhmətin bəhrəsini görür və təsərrüfatlarını ilbəil genişləndirirlər. Bu isə bol məhsuldan xəbər verməklə yanaşı, bazarlarımızda bolluq və ucuzluq yaradılmasına kömək edir.

Sevinirik ki, onlar öz zəhmətləri ilə ailələrinin yaşayışına dəstək olmaqla yanaşı, muxtar respublikamızın iqtisadiyyatına da töhfələrini verirlər.

**Telli MƏMMƏDOVA**

*Əfsanəyə dönən ömürlər*

## 19-cu payızda əbədi bahara aparan əbədiyyət yolçuluğu...



Ey ömrünün 19-cu payızında həyatını ölkəmizin baharlı günləri naminə qurban verən əziz şəhidim, gəlmişəm müqəddəs məramından, amalından söhbət açam. Qaraxanbəyli Kənd Mərkəzinin qonşərindəki Vətən göylərinin ənginliklərinə ucaltdığın, nicatına qovuşan torpaqlarda vüqarla dalğalanan ay-ulduzlu sevdalınla bəzənən evinin kandarına dikilir gözlərim bir neçə dəqiqəlik. Küçədən keçənlərə vaxtilə bu ocaqda muradına çatan bir igid yaşadığını nişan verən "Xocavənd şəhidi Pərviz Məmmədzadə" adlı tablo içəri səsləyir, qonaq edir kiçik bədəndə böyük ürək daşıyan oğulun qəhrəmanlıq dünyasına məni. 19 illik şərəfli ömrün şirin-şəkər, doğma, əziz xatirələrinə bürünüb Məmmədzadələrə məxsus evin hər küncü, hər bucağı. Dünyaya göz açdığın andan 19-cu payızının əbədi yüksəkliyə aparan sonuncu yolçuluğunadək ailənə yaşatdığın qürur, fəxarət dolu anların yadigarları – üzərindən uşaqlıq çağlarının şən-şaqraq nəfəsi duyulan oyuncaqların, ad günü hədiyyələri, musiqiyə marağından söz açan qarmonun, tədbirlərdə qazandığın uğurlardan xəbər verən diplomların, fəxri fərmanların, hərbi həyatını əxz edən forman və daha nələr, nələr. Və bir də səni sənin dilindən tanımağıma vəsilə olan, öz dəstxətinlə qələmə aldığın xatirə dəftəri, ömür gündəliyi...

Əziz şəhidim, atan, anan, nənən və bacının sənli xatirələri dilə gələrək qısa həyatının uzun yolundan danışır, yaşanan hər bir anı gözlər önünə sərən ömür gündəliyinin səhifələri bir-bir vərəqlənir. Deyir, 2001-ci il iyulun 31-də Babək şəhərində ailənizin ilk beşiyi olaraq dünyaya göz açdın, bütün həmyaşıdların kimi sən də ürəyindəki uşaqlıq arzuları, diləkləri ilə nənənin sevimli nəvəsi kimi Qaraxanbəyli kəndində böyüyüb yaşa doldun və günlərin birində anan Pərvanə xanımın əlindən tutub məktəb yollarına qədəm qoydun... Pərvanə xanım hər valideyn iclasında barəndə eşitdiyi "Belə tərbiyəli, qanacaqlı, böyük-kiçik yeri bilən, dərslərdə hazırcavablığı ilə seçilən övlad böyütdüyünüz üçün təşəkkürlər sizə" kimi ifadələrdən daha da qürurlanar, balaca bacın Pərvinə də nümunə çəkərmiş səni. O illər ərzində müəllimlərin hörməti ilə yanaşı, mehriban, səmimi dostlar da qazandın, vüqarlı, dəyanətli ürəyin həm də həssas, musiqiyə duyumlu idi. Böyük maraqla qarmon ixtisasının ilkin biliklərinə dərindən yiyələnib şəhadətnamə alsan da, musiqi təhsilini davam etdirmədin, məqsədin, məramın daha məsuliyyətli, çətin peşəyə yönəltdi səni. Belə ki, 8-ci sinifdə oxuyanda müəllimlərindən hərbi liseyə sənəd yığımı barədə eşidən kimi ata-ananın xeyir-duasını alıb enişli-yoxuşlu, keşməkeşli, məsuliyyətli, eyni zamanda da şərəfli bir yola çıxmağa qərar verdin...

Deyirlər, igid oğul atasına oxşayar. Əziz şəhidim, sən də atana bənzədin, onun kimi mübariz, Vətən yolunda canından keçməyə hər an amadə dayandın. Bəli, 1992-1993-cü illərdə bədnam qonşularımızın Naxçıvana, Sədərəyə dikilən gözlərini kor edənlər sırasında atan Zahid kişi də var idi. 2015-ci ildə Naxçıvan şəhərindəki hərbi liseyə daxil olanda bu günü düşünüb verdiyin söz hələ də müharibə veteranının qulağında çınlayır: "Əziz atam, gün gələcək oğlun sənin yarımçıq qalan işini tamamlayacaq, arzunu yerinə yetirəcək, ata-baba torpaqlarımızın azadlıq xəbərini ön cəbhədən verəcək". Elə bu arzu-diləklə də, hərbi yarışlarda qazandığın uğurlarla liseyi bitirib, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə üz tutdun. Ali məktəbdə də uğurlarının davamı gəldi, kursant yoldaşların arasında nümunəvi nizam-intizamınla, təlimlərdəki çevikliyinlə fərqləndin, komandirlərinin hörmət-izzətini qazandın. 2020-ci ilin may-iyun aylarında cəbhədə təxribatın qarşısının alınmasında göstərdiyin şücaətə görə, düşmənin canlı qüvvəsini sıradan çıxartdığın üçün aldığın mükafat isə sənin bacarıqlı, qabiliyyətli, əsl zabit kimi formalaşacağından xəbər verirdi...

Əziz şəhidim, sentyabrın 27-si haqq-ədalət müharibəmiz başlayanda sən Ali Hərbi Məktəbin ikinci kursuna hələ yenicə qədəm qoymuşdun, zabitliyə doğru addımlarının kövrəkliyinə baxmayaraq, ürəyindəki Vətən eşqi, vətənpərvərlik ruhu səni məktəbə deyil, ön cəbhədə vuruşan silahdaşlarının yanına səsləyirdi. Atana verdiyin sözü də tutmağın məqamı yetişdiyindən yuxarı komandanlığa ərizə yazaraq oktyabrın 1-də üçrəngli sevdalını da öpüb könüllü surətdə sıravi əsgər kimi döyüşə atıldın. Döyüş yolun 35 gün çəkdi, bu vaxt ərzində verilən əmrləri, komandaları böyük məharət və şücaətlə yerinə yetirdin. Ailənlə hər telefon danışığında "ordumuz irəliləyir, tezliklə zəfər müjdəsini verəcəyəm sizə deyər, məndən nigaran qalmayın" cümləsi ilə ananın pərişan ürəyinə ümid qığılcımı saçardın. Noyabrın 1-də yenə zəng vurmuşdun Pərvanə xanıma, budəfəki telefon söhbətində "Ana, artıq xeyli irəliləmişik, atama deyərsən, ona verdiyim sözü unutmamışam, tezliklə qələbə müjdəsini verəcəyəm, nənəmdən də muğayat olun", – söylədin. Pərvinə isə səni qəhrəman bacısı edəcəyəm vədini verərək sağollaşdın. Günlər sonra müzəffər Ordumuzun Böyük Qələbə, sənin isə son anadək qəhrəmanlıqla vuruşaraq şəhadətə yetişmə xəbərin gəldi...

Əziz şəhidim, yəqin sənə də əyan olub ki, şəhadətindən sonra ölkə Prezidenti cənab İlham Əliyev mərdliklə, şücaətlə döyüşən digər silahdaşların kimi sənin də igidliyini yüksək qiymətləndirdi, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundun. Kursant yoldaşların, səninlə çiyin-çiyinə vuruşan cəbhə dostların, komandirlərin atana, anana igidliyin barədə o qədər gözəl hadisələr nəql ediblər ki, eşidəndə fəxarət duymamaq mümkün deyil. Zahid kişi dost-tanışla söhbətində qürurla "Gözümün ağı-qarası olan oğlum atasına verdiyi sözü tutdu, Vətənimizin bayrağını, ailəmizin, nəslimizin adını uca etdi", – deyir. Nənən Məxluqə xala "Pərviz mənim hər zaman nümunəvi nəvəm olub, onun yeri bir başqadır" söyləyərək ötən illərin xatirələrini hey yada salır, söhbətinin əvvəlini də, axırını da sənə bağlayır. Anan Pərvanə xanım hər gün səndən nişanə qalan yadigarlarını, xatirə əşyalarını əzizləmək, hərbi formandan ətrini duymaq üçün otağına üz tutur, qohum-qonşu yanında toxtaq şəkildə deyir ki, oğlumun arzusu şəhid olmaq idi, çatdı muradına Pərvizim. Pərvin qardaş həsrətini ovutmaqdan ötrü şücaətlərinlə bağlı videolar çəkir, slaydlar hazırlayır, rəfiqələrindən qəhrəman bacısı sözünü eşidəndə isə qüruru yerə-göyə sığmır...

Ey ömrünün 19-cu payızında əbədiyyət yolçuluğuna çıxan, qanı ilə, canı ilə şərəf, ləyaqət dastanı yazan, könüllərin fəxarət məramına ucalan əziz şəhid qardaşım, Pərviz! Qısa həyatına mənalı səyahətimə vəsilə olan xatirə dəftərindəki vüqarlı qəlbindən süzülüb gələn vətənpərvər ətirli şeirlərini mütaliə etdikcə muradına çatan bir igid canlanır gözlərim önündə. Hələ Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə oxuduğun illərdə qələmə aldığın şeirin aşağıdakı misraları sənin doğma yurduna, onun bütövlüyünə olan sevginin sonsuzluğundan, mübarək Qələbə günündə necə könüldən arzuladığını xəbər verir:

*Verərsə komandan hücum fərmanın*
*Döyüşdə tökərdim düşmənin qanın,*
*Qalxardı göylərə Azərbaycanım,*
*Unutma Vətənim, unutma məni...*

***Ata-baba torpaqlarımızın, Qarabağımızın azadlığı naminə təhsilini yarımçıq qoyub haqlı müharibəmizə könüllü qoşulan, son nəfəsinədək "Təki Vətən yaşasın"– deyən Pərviz Məmmədzadəni və onun kimi igid oğullarımızı nə bu Vətən, nə də bu xalq heç vaxt unutmayacaq...***

✍ **Nail ƏSGƏROV**

***Tarixən Türk dünyasının həm qədim, həm də özünəməxsus sənəti hesab olunan aşıq sənəti bu gün də sevilərək yaşadılır. Sənət haqqında çox dəyərli faktlar və məlumatlar sırasında əsas mənbə kimi hər birimizin oxuduğu "Kitabi-Dədə Qorqud" dastanını misal göstərə bilərik. Aşıq sənətinin nümayəndələri nümunəvi söz ustaları hesab olunur. Çünki söz sənətinin musiqiylə səsləndirilməsi onun ecazkarlığını daha da artırır. Bu sənətə olan marağın nəticəsidir ki, Kərəmlər, Qəriblər, Qasımlar, Aşıq Alılar, Qurbanilər yetirib bu torpaq.***

*Aşıq Ələsgər – 200*

## Başlanğıcını millilikdən götürən ümumbəşəri dəyərlər toplusu



Göyçə mahalında doğulan qüdrətli aşıq, incitək dürr saçan sözləri el-el dolaşan Aşıq Ələsgərdən danışacağıq. O Ələsgər ki bu gün xalqımızın bədii təfəkkür tarixində rol oynayan bitib-tükənməz bir xəzinə qoyub. O xəzinə ki istedadlı söz sənətinin inciləri, gözəllikləri ilə bu günə meydan oxuyur. Böyük aşıq odlu qəlbini dilə gətirib, təsirli fikirləri ilə söz çəmənzarı yaratmağa nail olub. Aşığın mənəvi dünyası o qədər zəngindir ki, söz aşiqlərini, şairləri yazıçıları ovsunlayır və onlara sənətin yüksək zirvələrinə qalxmaq üçün güc-qüvvə verir. Aşıq Ələsgərin sənətinin böyüklüyü həm də orasındadır ki, bu bədii irs uzun müddət yazılmadan, dəftərsiz, kitabsız yaşayıb, dildən-dilə keçib, qorunub saxlanılıb. Bunu aşığın yaradıcılığına nəzər saldıqda aydın görürük. Onun lirikası oxucunun ürəyində özünə yer tapır, rişələnir, pöhrələnir və heç vaxt unudulmur. Bu mənada, Dədə Ələsgər doğma xalqının yaddaşında büllur söz və musiqi kimi qalan gözəllik vurğunu, həyat aşiqi, saflıq və səmimiyyət ustadıdır.

Aşıq Ələsgər dünyasından söz açarkən onun sənətinin mayasını təşkil edən qoşmalardan danışmasaq, olmaz. Bunların çoxu məhəbbət lirikasıdır ki, bu lirika Dədə Ələsgərin yaradıcılığının şah xəttinin qüvvətli qolunu təşkil edir. Aşıq həm də təbiət incəliklərindən ruhlanıb qoşmalar yazar, gözəlliklər mədh edərdi. Uşaqdan-böyüyə hər kəsin dillər əzbəri olan "Çərşənbə günündə, çeşmə başında" qoşmasında elin gözəl qızını, ləyaqətli gəlinini müqəddəs sayır, onu ziyarətgah hesab edir:

*Çərşənbə günündə, çeşmə başında,*
*Gözüm bir alagöz xanıma düşdü.*
*Atdı müjgan oxun, keçdi sinəmdən,*
*Nazü qəmzələri qanıma düşdü.*

Ələsgərin göz-qaş ilə işarə eləməsindən gözəlin başını bulayıb gözündən gülməsi qəlbini daha da coşdursa da, lakin "nişanlıyam, özgə malıyam" ifadəsini eşidəndə təəssüflənir, özgə malına kəm baxmağın bağışlanmaz olduğunu duyur və "sındı qol-qanadım yanıma düşdü", – deyir. Məhəbbət yolunda yorulub usanmayan aşıq ölümünün səbəbkarını "kirpiyin peykanı" bilir. Bu qoşmada ustad aşığın dilimizin zənginliyindən necə sənətkarlıqla istifadə etməsi xüsusi vurğulanmalıdır. Xalq ifadə tərzinə məxsus olan deyimlərin şeirə gətirilərək ustalıqla nəzmləşdirilməsi həm də qoşmanın axıcılığını təmin edib. Başını bulayıb gözdən gülmək, özgə malı olmaq, qol-qanadın sınıb yana düşməsi ən gözəl bədii frazeoloji birləşmə kimi qoşmanın dəyərini daha da artırıb.

Məhəbbət dastanlarından yaxşı tanıdığımız uğursuz sevgi macərası Aşıq Ələsgərə də cavan çağlarında ürcah olub. O, uzun müddət kədərlənsə də, mənəvi dünyasında çəkdiklərini büruzə vermək istəməyib, bu uğursuzluğun səbəbini müxənnət zəmanədə görübdür.

Gərdişin ictimai-siyasi hadisələrini dərindən dərk edən, tərəqqinin, tənəzzülün kamançasını zamanın ruhuna uyğun həm bəmdə, həm də zildə çalan, yazdıqlarını pozan, pozduqlarını yenidən nizama salmağa can atan, fani dünyanın gəlişini-gedişini şair həssaslığı ilə duyan ustad sənətkar dağların dağ boyda vüqarını, dərd-qəmini dərindən duyub, hiss edib. Kimsəsiz qalan yaylaqlar, axşam-sabah qız-gəlin qəhqəhəsi ilə xumarlanan buz bulaqlar, yollara boylanan yurd yerləri gərdişin günahları deyilmi?

*Hanı mən gördüyüm qurğu-büsatlar,*
*Dərdiməndlər görsə, tez bağrı çatlar.*
*Mələşmir sürülər, kişnəmir atlar*
*Niyə pərişandı halların, dağlar?*

Ümumiyyətlə, harada aşıq Ələsgərin adı çəkilirsə, oradan məhəbbət, sevgi, etiraf duyğuları baş qaldırır. Aşığın şeirlərindəki gözəllik, səmimilik o qədər güclüdür ki, oxucu onu anındaca duyur, mənimsəyir, sözün gücü, təsir imkanlarının genişliyi bədii təfəkküründə özünə yer edir. Gözəllərin ilhamlanıb söylədiyi şeirləri oxuduqca, sanki ecazkar bir musiqi dinləyirsən. O, vəsf etdiyi Azərbaycan qızlarının şuxluğunu, incəliyini, gəlinlərimizin ləyaqətini və nəcibliyini xüsusi ustalıqla sözün sehrində çatdıra bilir...

Azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, Azərbaycan aşıq sənətinin korifeyinin qəbirüstü abidəsi ucaldılıb. 1988-1989-cu illərdə soydaşlarımız öz dədə-baba yurdundan, Qərbi Azərbaycan torpaqlarından erməni vandalları tərəfindən didərgin salındıqdan sonra həmin əzəmətli büst dağıdılıb. Dədə Ələsgərin Ağkilsədəki qəbrinin dağıdılması, Azərbaycana xas mədəniyyət izlərinin itirilməsi XX əsrin ən amansız vandalizm nümunələrindəndir. Ancaq anadan olduğu tarixdən iki yüz il keçsə də, Ələsgərin yaradıcılığını tədqiq etməyə maraq günü-gündən daha da artır. Yubileyi münasibətilə 1972-ci ildə Xalq artisti, tanınmış kinorejissor, ssenarist Xamis Muradov tərəfindən çəkilmiş sənədli film xalqımızın aşığa necə dəyər verdiyinin bariz nümunəsidir. Aşıq Ələsgər yaradıcılığı klassik aşıq şeiri ənənələrini yaşatmaq və mənəvi dəyərləri qorumaqla yanaşı, həm də novator sənətdir. Bütün böyük sənətkarlar kimi, Aşıq Ələsgərin yaradıcılığı da milli mədəniyyətin faktıdır. Ancaq böyük sənətkarların yaradıcılığı bunu da sübut edib ki, bəşəriyyətə aparan yol öz başlanğıcını millilikdən götürür və bu mənada, Ələsgərin yaradıcılığı da klassik bir nümunədir, ümumbəşəri dəyərdir.

*Mədəniyyət xəzinəmizin qiymətli incilərindən milliliyimizi təcəssüm etdirən aşıq sənəti hər zaman dövlət qayğısı ilə əhatə olunub, inkişaf etdirilib. Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin 150 və 175 illik yubileyləri dövlət səviyyəsində qeyd olunub. Həmçinin Azərbaycan aşıq sənəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Cari il fevralın 18-də Aşıq Ələsgərin 200 illiyinin keçirilməsi ilə bağlı Prezident cənab İlham Əliyevin Sərəncam imzalaması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə bu yubileyin muxtar respublikamızda da geniş şəkildə qeyd olunması ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi də bu qədim el sənətinin yaşadılmasına, milliliyimizin qorunmasına göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Azərbaycanın böyük xalq sənətkarı, mütəfəkkiri Aşıq Ələsgərin yubileyinin keçirilməsi bir tərəfdən ustadın zəngin yaradıcılığından ilham alıb bugünkü sosial-mənəvi ehtiyacımızı ödəməyə kömək edirsə, digər tərəfdən aşıq sənətinin hərtərəfli öyrənilib lazımi səviyyədə təbliğ olunması üçün geniş imkanlar açır.*

✍ **Aytac CƏFƏRLİ**

## Alimlərin magistrantlar ilə görüşü olub

***Naxçıvan Dövlət Universitetində Elm günləri çərçivəsində keçirilən silsilə tədbirlərin davamı olaraq AMEA Naxçıvan Bölməsinin alimləri ilə ali təhsil müəssisəsi magistrantlarının görüşü keçirilib.***

Universitetin rektoru Elbrus İsayev, AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildiriblər ki, muxtar respublikamızda elmin inkişafı istiqamətində ardıcıl iş aparılır. Çıxışlarda universitetin professor-müəllim heyətinin, AMEA Naxçıvan Bölməsi əməkdaşlarının qazandıqları elmi uğurlar muxtar respublikada elmə, təhsilə göstərilən dövlət qayğısının bəhrəsi kimi qiymətləndirilib.

Tədbirdə AMEA Naxçıvan Bölməsi alimlərinin çıxışları dinlənilib. Magistrantlar bölmədə olan vakant yerlərlə tanış olublar. Gələcəyin elm adamlarına məsləhət və təkliflərini çatdıran alimlər onlara elm yolunda uğurlar arzulayıblar.

Tədbirdə suallar cavablandırılıb, alimlər 50-dən çox kitab və monoqrafiyalarını universitetə təqdim ediblər.

Görüşdən xatirə olaraq universitet tərəfindən alimlərə plaket hədiyyə edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

***Elmi mənbələrdən və etnoqrafik materiallardan aydın olur ki, Azərbaycan xalq bayramları qədim tarixə malikdir. Daim maldarlıq və əkinçiliklə məşğul olan xalqımızın həyatında təbiət hadisələrinin, xüsusən ilin fəsillərinin rolu böyük olub. Qışın bitməsi, yazın gəlişi ilə təbiətdə baş verən canlanma qədim insanın məişətində bayram mərasimi doğurub. Bu mənada, Azərbaycanın milli-mənəvi mədəniyyətinin ən qədim və zəngin tarixə malik ənənələrindən biri, bəlkə də, birincisi Novruz bayramıdır.***

# Özünəməxsus adətləri və hazırlıqları ilə yurdumuza Novruz gəlir

Rəssam Sabir Məmmədov. "Bayrama hazırlıq"





Ata-babalarımızdan bizə yadigar qalan, milli ruhumuzu özündə əks etdirən Novruz bayramı muxtar respublikamızın ayrı-ayrı bölgələrində də yüksək əhval-ruhiyyə ilə qeyd olunur. Elimizdə-obamızda bahar bayramı öncəsi insanların xüsusi hazırlıqları hər il eyni dövrə təsadüf edir. Təsərrüfatda qızğın işlərə start verilir, evlərdə təmizlik aparılır, qabaqcadan bayram süfrələrinin hazırlanmasına başlanılır. Bu bayrama insanlar hələ mart ayı ilk qədəmlərini qoyandan hazırlıq görürlər. Novruz gününə aparan yol dörd ünsürü özündə ehtiva edən çərşənbələrdən keçir. Bunlar Su, Torpaq, Yel və Od çərşənbələridir.

Novruzun gəlişinə, xüsusilə kənd yaşayış məntəqələrində geniş hazırlıq işləri görülür. Belə ki, insanlar həm evlərdə, həm də həyət-bacada bayram tədarükü ilə məşğul olurlar. Erkən yazda bağlarda, əkin sahələrində becərmə işləri görülür. Çünki meyvə bağları vaxtında budanıb, ağac dibləri belləndikdə və suvarıldıqda yaxşı məhsul hasil olur. Elə hazırlıqların bayrama qədər başa çatdırılması da buna görə lazımdır. Ağacların çiçəklənməsi, quşların budaqlarda ötməsi insana stimul verir, təmiz yaz havası kənd həyatında bir başqadır. Səmimiyyətlə qeyd etsək, bayrama hazırlıqla bağlı qadınların üzərinə daha "ağır yük düşür". Çünki Novruz ərəfəsi hazırlıqlarından biri də süfrələrin, bayram nemətlərinin – zərif əllərin bəzək vurduğu şəkərbura, paxlava və digər şirniyyatların hasilə gətirilməsidir.

Yeri gəlmişkən, bir az da Novruz süfrəsi, xörəkləri və şirniyyatlarından danışaq. Bayram günü süfrəni bəzəyəndə 7 cür nemət masaya qoyulur. Buna el arasında "yeddiləvin" deyirlər. Bu nemətlər bölgələrə görə dəyişir. Məsələn, bir çox yerlərdə insanlar su (təmizlik), güzgü (paklıq mənasında, yəni insanlar ona yalandan, paxıllıqdan, xudpəsəndlikdən uzaq olsun, – deyə baxarlar), səməni (təbiətin oyanması), balıq (bu heyvan çox çevik olduğundan insanların da həyatda çevik olması arzulanır), alma (xoş ətirli olduğu üçün), halva (şirinlik) və fincan içərisində qoyulan qızıldır (bu da var-dövlət rəmzidir). Ümumiyyətlə, 7 rəqəmi azərbaycanlıların düşüncəsinə görə, müqəddəs olduğundan süfrədə 7 cür xörək və ya 7 cür şirniyyatın olması xalqımız tərəfindən vacib sayılır. Bayram günü hazırlanan şirniyyatlara şorqoğal, şəkərbura, paxlava, badambura kimi milli mətbəx nümunələrimiz aiddir. Bayram süfrəsini, xüsusilə gəlin-qızlarımızın nazını çəkə-çəkə yetişdirdiyi səməni və onun ətrafını bəzəyən rənglənmiş yumurtalar da əhatə edir. Bu da inanca görə, canlı aləmin yaranışına işarədir. Yumurta, adətən, qırmızı rənglə boyanır. Çünki qırmızı rəng bəşəriyyətin şadyanalıq içində yaşamaq istəyinin təcəssümü kimi qəbul edilib. Analar səməni yetişdirir, xonçalarda bahar, yaşıllıq rəmzi olan səməninin yanında şam yandırır və səməniyə həsr edilmiş mahnılar oxuyurlar: Səməni, saxla məni, ildə göyərdərəm səni. Səməni, sazana gəlmişəm, uzana-uzana gəlmişəm. Qoy yeni baharda hər şey təmiz olsun, – deyərək evlərdə, həyət-bacalarda yığış edilir, adamlar təzə paltarda küçəyə çıxır, yasda olan ailələri yasdan çıxarırlar. İlaxır çərşənbədən öncəki həftənin cümə axşamı "Qara bayram" olur ki, həmin gün hər kəs öz doğmalarının məzarlarında təmizlik işləri aparır, onları ziyarət edirlər. Bu il xalqımızın ellikcə ziyarət edəcəkləri müqəddəs ünvanlar isə Vətən uğrunda öz canlarından keçərək bizə Qələbə sevincini yaşadan, ömürlərinin baharına qıyıb bizə əbədi bahar səadəti nəsib edən əziz şəhidlərimizin məzarları olacaq.

Adətə görə, hər kəs Novruz bayramını öz evində qeyd etməlidir. Əks- təqdirdə həmin şəxs 7 il bayram axşamı evində ola bilməyəcək. Novruzun əsas tələblərindən biri də küsülülərin barışmasıdır. Bu da xalqın birliyə, həmrəyliyə dəvət olunması deməkdir. İlaxır çərşənbədə və bayram günündə qeybətə yol verməmək və yalnız xoş sözlər danışmaq tövsiyə olunur. Çünki həmin günü cavan oğlan və qızlar ürəklərində arzu tutaraq qulaq falına, yəni qonşuların etdiyi söhbətə gizlincə qulaq asmağa gedərlər. İnanca görə, pusulan qapıdan ilk eşidilən sözdən arzulanan niyyətin baş tutub-tutmayacağı bəlli olur. Əgər qulaq asan şəxs xoş söz eşidərsə, onun da arzusu yeni ildə yerinə yetəcək.

Novruzun unudulmayan ənənələrindən biri də uşaqların qohum-qonşuya papaq atmasıdır. Papaqatma, adətən, sonuncu – Od çərşənbədə həyata keçirilən ritualdır. Papaq atılan evdə onu bayram nemətləri ilə doldurur və sahibinə qaytarırlar. Təbii ki, bunun da mənası var. İnanca görə, insanlar bu addımları ilə bişirdiklərini paylaşar və kasıb ailələrə əl tutarlar. Çünki Novruz maddi vəziyyətindən asılı olmayaraq, hər kəsin şənləndiyi bir bayramdır. Bayram günü bütün mənzillərin qapıları açıq olar. Səhərisi isə insanlar bir-birinin evinə gedərək bayramlarını təbrik edərlər.

*Bu il ölkəmizin, eləcə də diyarımızın hər bir bölgəsində Novruz özünəməxsus adətləri, hazırlıqları və ən əsası yüksək əhval-ruhiyyə ilə, Qələbə sevinci ilə qeyd edilir. Qoy bu il 30 ilə yaxın bir zamandan sonra doğma Qarabağımızda, Şuşada, Cıdır düzündə, Laçında alovlanacaq bayram tonqalları xalqımıza əbədi sülh, sevinc, səadət nəsib etsin.*

**Gülcamal TAHİROVA**

Estafet

# Bu yaz bir başqa yazdır !

*(esse)*



***Azərbaycan ədəbiyyatının ölməz siması sayılan Mikayıl Müşfiq bir zaman yazırdı: "Bu yaz başqa bir yazdır..." Bu il yurdumuza gələn Novruz da başqa bir Novruzdur. Bu Novruz 30 illik həsrətin sonu, Şuşada, Laçında, Kəlbəcərdə qalanan tonqal, bu torpaqlarda gələcək üçün tutulan arzu, dilək deməkdir. Necə də xoşdur minillik adəti, baharın gəlişini babalardan bizə yadigar qalan Azərbaycan torpağının Qarabağ adlı guşəsində də qeyd etmək!!! Hər qarışı, daşı, torpağı, çayı, meşəsi yadırğayıb bu kəlməyə, Novruz tonqalının hərarətinə. Bu müqəddəs bayramımıza sayılı günlər qalıdqca, sanki igidlərin qanı ilə suvarılan Murovdağın yamacları elə bu gün gülə, çiçəyə qərq olmaq istəyir. Qarabağ düzləri, meşələri, "Gəl, bahar qoxulu, yaz ətirli Novruzum. Bu il artıq sinəmizdə bizə yad olan səslər, danışıqlar deyil, doğma Azərbaycan dilində aşıq şeirləri, şən-şaqraq musiqilər, nəğmələr dilə gəlsin"– deyir.***

Bu yaz bir başqa yazdır... Çaylar yeni illə, yeni günlə, Novruzla üzərinə düşən düşmən izini, hənirini təzələmək istəyir. Yenidən qaynamaq, çağlamaq , doğulmaq, yenidən daha şux, daha ətirli güllərə həyat vermək üçün SU durulur, TORPAQ yeni həyat, yeni bar-bərəkət gətirmək, YEL bu xoş müjdəni ellərə çatdırmaq üçün daha gur əsmək, havanı yağı nəfəsindən təmizləmək üçün qasırğa qoparmaq, GÜNƏŞ isə odu ilə düşmənin məkrli niyyətini yandırıb kül etmək üçün tələsir!

Ürəkdə bir hayqırtı, bir istək dilə gəlir... Ən uca zirvəyə qalxıb qıy vurmaq, ay ellər, Qarabağa Novruz gəlir! – deyə dünyaya hay salmaq keçir.

Bu yaz bir başqa yazdır... Bu il bayram tonqalımız da başqa olacaq, əvvəlki illərdəkindən daha gur yanacaq. Novruz tonqalını Şuşanın ən hündür dağlarının zirvəsində qalayacağıq. İgidlərimizin dillərə dastan olan Şuşa döyüşünə şahidlik edən dağlar indi də Novruz tonqalı ilə düşmənə gözdağı verəcək. Həm də qədim Oğuz elinin müdrik ağsaqqalı olan Dədə Qorqudun dediyi kimi üç böyük tonqal yandıracağıq. Qoy düşmən bilsin ki, yurdumuzun ocağı gur yanır... Axı Oğuz yurdunda üç tonqal qələbə rəmzidir! Bütün keçmiş ağrı-acılarımızı, kədərimizi bu tonqalda yandırıb birlik və bərabərlikdən doğan qələbə ovqatımızla Qarabağın ilk Novruz səhərində Günəşi salamlayacağıq. Qarabağ atlarının ayaq səsiylə canlanan Cıdır düzü bənövşənin, novruzgülünün, xarıbülbülün ətri ilə salamlayacaq yurdumuzu. "Cəngi" nin əks-sədası ilə yurdumuzun hər qarışı – daşı, torpağı, sıldırım qayaları ana yurdun səmasında məğrur-məğrur dalğalanan Bayrağımızı salamlayacaq. Baharın müjdəçisi olan qaranquşlar qanadları ilə Vətən torpağının azadlıq qoxan ətrini dünyaya yayacaqlar.

Bu yaz bir başqa yazdır... Bu bahar yurdumuza uzun illər həsrətində olduğumuz yeni həyat, yeni gün, işğalda olan torpaqlarımıza azadlıq, firavanlıq gətirdi. İsa bulağının zümzüməsi ilə oyanan ağaclar, otlar, çiçəklər Vətən torpağında azadlıq baharının füsunkar rəsmini çəkərək, sanki dünya şöhrətli rəssamlara meydan oxuyur.

Bu yaz bir başqa yazdır... Quşların cəh-cəhi də, çiçəklərin ətri də, suların zümzüməsi də, aşıqların səsi, sazların avazı da başqadır. Çünki bu yaz yurdumuzu salamlayan Günəş azadlığın sönməyən alovuyla isidir elimizi, ruhumuzu, qəlbimizi. Çin olan arzularımızın şöləsi ilə aydınlanan ana yurd şəhidlərin müjdələndiyi cənnətə bənzəyir bu bahar.

Bu yaz bir başqa yazdır... Bu yaz torpağın torpağa, ananın balaya, bir sözlə, Azərbaycanın Qarabağına qovuşduğu bahardır. Bahar bayramın mübarək olsun, Ana Vətənim, cənnət Qarabağım, gözəl Naxçıvanım! Bu bayram sevincini bizlərə yaşadan, yaddaşımızın solmayan baharına çevrilən igid şəhidlərimiz, ruhunuz şad olsun! Ulu babalarımızdan bizə miras qalan, birlik və bərabərlik rəmzinə çevrilən Novruz bayramınız mübarək olsun, Qarabağı bizə qaytaran Vətənimin mərd igidləri! Xoş müjdəli Novruzun mübarək, anamız Azərbaycan!

**İlahə ALLAHVERDİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# Vaksinasiya davam edir



"Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq martın 16-dan ümumtəhsil müəssisələrində çalışan pedaqoji və texniki heyətin vaksinasiyası prosesinə başlanılıb. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzdə xüsusi peyvənd məntəqəsi yaradılaraq zəruri avadanlıqlarla təchiz olunub. Vaksinasiya Naxçıvan Muxar Respublikası Səhiyyə Nazirliyi tərəfindən yaradılmış xüsusi heyət tərəfindən həyata keçirilir.

İlk mərhələdə pedaqoji və texniki heyətin risk qrupuna daxil olan 50 və daha yuxarı yaşlı 102 nəfəri "Sinovac" vaksininə cəlb edilib. Təhlükəsizliyinə və effektivliyinə görə seçilən bu vaksinasiyada heç bir narahatlıq müşahidə olunmayıb.

Qeyd edək ki, koronavirus pandemiyası şəraitində normal tədris mühitinin davam etdirilməsi üçün pedaqoji və texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir.

# Nümunəvi sürücülər mükafatlandırılıb



2020-ci il ərzində muxtar respublika üzrə nümunəvi sərnişindaşıma xidməti göstərən sürücülərin mükafatlandırılması ilə bağlı keçirilən tədbirdə çıxış edən Dövlət Nəqliyyat Xidmətinin rəisi Əli Hüseynəliyev bildirib ki, dövlət qayğısı nəticəsində muxtar respublikamızda nəqliyyat sahəsi də öz yüksəliş dövrünə qədəm qoyub, bu istiqamətdə həyata keçirilən tədbirlər insanların rahatlığının təmin edilməsinə əlverişli zəmin yaradıb.

Bildirilib ki, 2020-ci il ərzində şəhərdaxili nəqliyyatda istifadə edilməsi üçün 6 ədəd "King-Long" markalı avtobus alınaraq gətirilib. Muxtar respublikada "İdeyadan başlanğıca" devizi altında innovasiyaya əsaslanan və elmi-texniki tərəqqini əks etdirən yeni layihə həyata keçirmək məqsədilə "Elektron taksi xidməti" yaradılıb.

Diqqətə çatdırılıb ki, hazırda muxtar respublika üzrə 313 avtobus, 496 taksi olmaqla, ümumilikdə, 800-dən artıq avtonəqliyyat vasitəsilə sərnişinlərə nümunəvi xidmət göstərilir. Xidmət tərəfindən mütəmadi olaraq nümunəvi xidmət göstərən, eləcə də ucqar dağ və sərhəd kəndlərinə işləyən sürücülərin fəaliyyətləri qiymətləndirilir, onlara lazımi köməklik göstərilir.

Sonra 2020-ci il ərzində nümunəvi sərnişindaşıma xidməti göstərən 60 sürücüyə müxtəlif nominasiyalar üzrə diplom, fəxri fərman, qiymətli hədiyyələr və oxunması zəruri olan kitablar təqdim olunub. Təltif olunanlardan Vaqif Quliyev yaradılan şəraitə, göstərilən qayğıya görə bütün sürücülər adından dövlətimizə minnətdarlıq edib.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Müddətdən artıq hərbi xidmət hərbi qulluqçusu İlham Bəhlul oğlu Zamanovun adına verilmiş AD-0049767 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Yuxarı Daşarx kənd sakini Əkbərov Oktay Mirzə oğlunun adına verilmiş JN-395A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Allahverdiyev Veysəl Cavad oğlunun adına verilmiş 8154 inventar nömrəli texniki pasport və 01/30 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 248